# FÜZULİ: Cəbhə xətti, güllə səsi, bir də bol məhsul...

**❒ Rayonun qabaqcıl fermerlərindən olan Fərhad İbrahimovla görüşmək ən azı iki cəhətdən maraqlı idi. Əvvəla, onun başçılıq etdiyi fermer təsərrüfatı pambıq yığımında rayon üzrə birincilər sırasındadır. İkinci tərəfdən, Fərhad İbrahimov Horadiz kəndi ərazisində, Lələtəpə yaxınlığında, şanlı Aprel göyüşləri zamanı Azərbaycan Silahlı Qüvvələrinin azad etdiyi ərazidə məhsul yetişdirir.**



Lələtəpədən bir az bəri, geniş ərazidə dayanmışıq. Torpaq yoldan sağ tərəfdə taxıl əkini sahələridir. Hazırda burada şum aparılır. Sol tərəfdə isə pambıq sahələridir. Durna qatarı kimi uzanıb gedən cərgələr bol məhsuldan xəbər verir. Qozalar demək olar ki, tamamilə açılıb, dərmanlama nəticəsində yarpaqlar töküləb. Bura maşınla yığım üçün nəzərdə tutulub. Çinar ağaclarından o tərəfdə isə əllə yığım gedir. Günorta olmasına baxmayaraq dolu bardanlar görünür.

**Fərhadla da elə burada görüşdük. O, işlərin gedişi, əldə edilmiş ilk nəticələr barədə həvəslə məlumat verdi:**

– Bu il pambıq əkini sahələrini artıraraq 25 hektara çatdırmışıq. Bu günə kimi 40 ton «ağ qızıl» toplayıb emal müəssisəsinə təhvil vermişik. Gördüyünüz kimi, elə yerlər var ki, hələ əl dəyməyib. Maşınla yığıma sabahdan başlayacağıq. Demək istəyirəm ki, nəzərdə tutduğumuz kimi, məhsul toplanışını yaxın on gün ərzində başa çatdıracağıq. Bunun üçün hər cür imkanımız var. Əvvəla, havalar olduqca əlverişli keçir. Digər tərəfdən, canlı qüvvə, maşın-mexanizm, yanacaq sarıdan da heç bir çətinliyimiz yoxdur.

Yolumuz cəbhə xəttinə yaxın olan daha bir kəndə – Alıxanlıyadır. Burada kəndin özü də, əkin-biçin, örüş yerləri də düşmənlə üz-üzədir. Atəşkəs rejiminin tələbləri qarşı tərəfdən, demək olar ki, hər gün pozulur. Ancaq bu, kənd sakinlərinin əlini işdən soyutmur. Onlar bir qarış da olsun boş yer saxlamır, ayaqlarını doğulub böyüdükləri doğma torpağa daha möhkəm dirəyir, bolluq yaradır, gün-güzəranlarını yaxşılaşdırır, sabaha dərin inam və ümidlə baxırlar.

Belə zəhmət adamlarından biri ilə tanış olduq. Öyrəndik ki, Vaqif Hacıyev rayonun qabaqcıl fermerlərindən hesab olunur. Özü də təkcə kənd təsərrüfatının bir sahəsi ilə məşğul olmur. Burada taxıl da əkilir, çuğundur da, pambıq da, bostan-tərəvəz də. Bu isə o deməkdir ki, kənd adamı il boyu özünə, ailəsinə çatacaq qədər məhsul götürə bilir. Daha bazara, dükana getməyə ehtiyac qalmır. Artığını da bazara çıxarır. İşin bu cür təşkili ilə aydın məsələdir ki, onların gün-güzəranlarının yaxşılaşmasına, qazanclarının artmasına səbəb olur.

***Vaqif Hacıyevlə söhbətimiz də elə bu barədədir.***

– Bilirsinizmi, – dedi, – indi Azərbaycan kəndi bolluq-bərəkət mənbəyidir. Heç uzağa getməyək. Cəbhə xəttində, düşmənin, necə deyərlər, ikiaddımlığında yerləşməsinə baxmayaraq bizim kənd buna ən yaxşı misaldır. Burada hamının çörəyi bax, bu torpaqdan çıxır. Nə istəyirsə, onu da əkir, bazarla ayaqlaşmağa çalışır. Hər ailənin pay torpağı var. Üstəlik, bələdiyyə torpaqlarından icarə yolu ilə istifadə edə bilirik. Burada, necə deyərlər, nə tənbəllik etməyə, nə də hər hansı bəhanə gətirməyə ehtiyac yoxdur. Bu il 14 hektarda pambıq yetişdirmişik. Hələlik 34 ton məhsul yığılmışdır. Ancaq hələ sahələrdə məhsul çoxdur. Yığımı nəzərdə tutulmuş müddətdə, tez və itkisiz toplayıb təhsil vermək üçün hər dəqiqənin qədrini bilir, vaxt itkisinə yol vermirik. Məhsuldarlıq da ötən ilə nisbətən yüksəkdir – hər hektardan 26 sentner.

Sərhəd Qənbərov əslən İşıqlı kəndindəndir. Hazırda "Fin" qəsəbəsində məskunlaşıb. Əkin-biçin sahələri də buradadır. Deyir ki, rayonumuzun, ölkəmizin hər yeri bizlər üçün əzizdir, müqəddəsdir. Ancaq doğulduğum, böyüdüyüm doğma ocağımız daha əzizdir. Ona görə də hər gün, hər ay həsrətlə yaşayır, ata-babalarımızın ruhu dolanan o yerlərə dönməyi arzulayırıq.

Qabaqcıl fermer onu da bildirir ki, cari ildə 24 hektarda pambıq əkib-becərmişdir. Şum, səpin, becərmə tədbirləri vaxtında və keyfiyyətlə aparıldığından bol məhsul yetişdirilmişdir. İndi əsas diqqət aylarla gərgin zəhmət hesabına hasilə gəlmiş «ağ qızıl»ı vaxtında və itkisiz toplayıb təhvil verməkdir.

Öyrəndik ki, bu günə kimi 52 ton pambıq yığılmışdır. Məhsuldarlıq isə hər hektardan hələlik 25 sentnerdir.

Pambıq yığımı ilə əlaqədar olaraq rayon icra hakimiyyətində yaradılmış operativ qərargahdan aldığımız son məlumata görə, bu il 2100 hektarda çiyid səpini aparılmışdır. İndiyə kimi tarlalardan 1300 tondan çox məhsul yığılmışdır. Hədəf isə 4 min tondur. Yerlərdə işlərin düzgün təşkili, emal müəssisələri ilə qarşılıqlı əlaqə, havaların əlverişli keçməsi onu göstərir ki, məhsul yığımı oktyabrın sonunadək başa çatdırılacaqdır. Bunun üçün operativ qərargahın üzvləri ortaya çıxan çətinliklərin dərhal həllinə nail olur, gündəlik nəticələr təhlil edilir, hansı sahəyə kömək lazım olduğu dəqiqliklə müəyyənləşdirir, bütün diqqət və səyləri yalnız bir məqsədə – məhsulun qısa müddət ərzində toplanmasına yönəldirlər. Bu isə öz konkret nəticəsini verir. Belə ki, yığımın sürəti hər gün artır.

Biz burada son illər təkcə pambıqçılıqda əldə edilmiş uğurlardan, məhsul yığımının gedişindən söhbət açdıq. Yeri gəlmişkən, onu da qeyd edək ki, kənd təsərrüfatının digər sahələrində də böyük irəliləyiş əldə edilmiş, əkin sahələri genişləndirilmiş, məhsuldarlıq yüksəldilmişdir.

Strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Artıq yeddinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tondan artıq taxıl istehsal edən rayonları sırasında öz yerini qoruyub saxlayır.

Ölkə Prezidenti İlham Əliyev respublikada ərzaq bolluğunun yaradılması, əhalinin mühüm strateji məhsul olan taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək məqsədilə iri taxılçılıq təsərrüfatlarının yaradılmasını qarşıya məqsəd qoymuşdur. Ölkə başçısı kənd təsərrüfatının inkişafı ilə bağlı təsdiq etdiyi Strateji Yol Xəritəsinə uyğun olaraq rayonda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb. 2700 hektar torpaq sahəsi müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsal edən Aqroparkın istifadəsinə verilib. 500 hektar sahədə isə toxumçuluq təsərrüfatı təşkil olunub.

Taxıl istehsalçıları 2017-2018-ci təsərrüfat ilində 36300 hektar ərazidə taxıl əkini aparıblar ki, bunun da 27325 hektarı buğda, 8975 hektarı isə arpadır. Builki nəticələr də yaxşı olmuşdur. Otuz yeddi min hektara yaxın sahənin məhsulu çox qısa müddətdə, itkisiz və mütəşəkkil qaydada biçilmiş, sahələrdən 108217 ton məhsul əldə edilmişdir. Bunun da 82938 tonu buğda, 25279 tonu isə arpadır. Buğda əkilmiş sahələrdə orta məhsuldarlıq 30,2 sentner, arpa əkilmiş sahələrdə isə 28,2 sentner olmuşdur.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin bu sahələrin hesabına məşğulluğunun təmin olunması barədə tapşırıq və göstərişlərinə uyğun olaraq bu il Füzuli rayonunda yuxarıda qeyd etdiyimiz kimi 2100 hektar ərazidə pambıq əkilmişdir. Pambıq əkilmiş sahələrə lazımı aqrotexniki qulluq göstərilmiş, mineral gübrələr verilmiş, vaxtlı-vaxtında suvarma suyu ilə təmin edilmişdir. Hazırda rayonda məhsul yığımı sürətlə davam edir.

Ənənəvi təsərrüfat sahələrindən olan baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi əhali tərəfindən böyük rəğbət və minnətdarlıqla qarşılanmışdır. 2018-ci ildə kümçülər qısa müddətdə 37,5 tondan artıq yaş barama istehsal etmişlər. Bir aya yaxın müddətdə 340 min manatadək vəsait əldə olunmuşdur. Füzuli rayonu barama istehsalında əldə etdiyi nəticəyə görə respublikada ilk üçlükdə qərarlaşmışdır.

Cari ildə ilk dəfə Aqroparkın istifadəsinə verilmiş əkin sahəsində 223 hektar soya, 431,3 hektar şəkər çuğunduru, 333 hektar qarğıdalı, 39 hektar günəbaxan yetişdirilmişdir. Ümumiyyətlə, cari ildə rayon üzrə 1209 ton tərəvəz, 396 ton bostan, 1818 ton kartof, 335 ton meyvə toplanmış, 1289 ton ət, 14049 ton süd, 3760 min ədəd yumurta istehsal olunmuşdur. Əvvəlki illərlə müqayisədə haqqında söhbət gedən sahələrdə artım yüksək olmuşdur. Sevindirici haldır ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir.

> ***Son səfərimdən sonra keçən dövr, doğrudan da, Füzuli rayonu üçün çox böyük uğurlarla zəngin bir dövr olmuşdur. Qısa müddət ərzində böyük işlər görülmüş, parklar salınmış, yeni sənaye müəssisələri yaradılmışdır. Abadlıq işləri görülür və bu məni çox sevindirir. Çünki Füzuli rayonu ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olan bir diyardır.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Rayonda sahibkarlığın inkişafına ciddi fikir verilir. Yaradılan şəraitin nəticəsidir ki, yüzlərlə şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur, rayonun iqtisadiyyatının möhkəmləndirilməsində yaxından iştirak edirlər. Onlarla insan rayonda kənd təsərrüfatı, kiçik emal müəssisələri yaradaraq məhsul bolluğu yaradır, yeni iş yerləri açır, sahibkarlıq fəaliyyətlərini genişləndirirlər.

Təkcə 2017-ci ildə Füzuli rayonuna iş adamları tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar 12 milyon manatdan artıq investisiya qoyulmuş, kənd təsərrüfatının, yerli istehsalın inkişafına xidmət göstərən tədbirlər həyata keçirilmiş, özəl sektorun çəkisi artırılmışdır.

Cəbhə xəttində, düşmənlə üz-üzə dayanan Füzulidə bax, belə işgüzar və yaradıcı mühit, sağlam mənəvi-psixoloji ab-hava mövcuddur. Pambıqçı da, taxılçı da, baramaçı da, ziyalı da sabaha dərin inam və ümidlə baxır, əkir-becərir, bolluq yaradır, müqəddəs ata-baba torpaqlarına qayıdacaqları günü böyük həsrət və intizarla gözləyirlər. Onlara bu inam və ümidi verən isə ölkə Prezidenti İlham Əliyevin qətiyyətli və uzaqgörən daxili və xarici siyasət xətti, kəndə, kənd adamlarına, o cümlədən cəbhə xəttində yaşayan qəhrəman Füzuli sakinlərinə olan gündəlik diqqət və qayğısıdır.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***









